# İqtisadiyyat Nazirliyi Dünya Bankı ilə əməkdaşlığın inkişaf istiqamətlərini müzakirə edib




❐ ***İqtisadiyyat naziri Mikayıl Cabbarovun Dünya Bankının Azərbaycan üzrə meneceri Sara Mayklın rəhbərlik etdiyi nümayəndə heyəti ilə videokonfrans formatda görüşü keçirilib.***

Nazirliyin mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, görüşdə ölkəmizin Dünya Bankı ilə əməkdaşlığa önəm verdiyi və əlaqələrin çoxşaxəli olduğu vurğulanıb. Bankla əməkdaşlığın inkişaf istiqamətləri və Azərbaycanda aparılan islahatlara dəstək barədə müzakirələrin aparıldığı görüşdə Dünya Bankının ölkəmiz üzrə hazırlayacağı xüsusi iqtisadi və maliyyə araşdırmalarının əhəmiyyəti qeyd edilib, araşdırmalar üzrə əsas aspektlər diqqətə çatdırılıb. Bildirilib ki, Bankın hazırlayacağı Ölkə İqtisadi Memorandumu (Country Economic Memorandum – CEM), Maliyyə Sektorunun Qiymətləndirilməsi Proqramı (Financial Sector Assessment Program – FSAP) və Sistematik Ölkə Diaqnostikası (Systematic Country Diagnostic – SCD) araşdırmaları prioritet inkişaf hədəflərinə nail olunmasına töhfə verəcək.

Görüşdə qeyd olunan araşdırmaların hazırlanmasında İqtisadiyyat Nazirliyi ilə əməkdaşlıq məsələləri barədə fikir mübadiləsi aparılıb.

Xalq qəzeti 2021.- 11 fevral.- S.2.